# Qəbələdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə şənliklər keçirilmişdir

## Həmrəyliyimiz əbədi olsun

Məktəbimizdə tarixi bayramlarla əlaqədar silsilə tədbirlərin keçirilməsi ənənə halına çevrilib. Yeni il qabağı 31 Dekabr—Dünya Azəpbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə geniş tədbir keçirilmişdir.

Tədbirdə məktəbin müəllim və şagird kollektivi iştirak etmişdir. Tədbiri məktəbin direktoru Məhəbbət Rüstəmova açdı. O, əvvəlcə tədbir iştirakçılarını salamladı. Onları bu gözəl bayramlar münasibətilə ürəkdən təbrik etdi, hər birinə öz xoş arzularını çatdırdı.

31 Dekabr—Azərbaycan millətinin birlik şüarının simvolu günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqə qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayan dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından ayrılaraq bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Türk dünyasının böyük lideri Heydər Əliyev tarixdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi oldu. Azərbaycan dövləti dünya azrbaycanlılarının I qurultayının tarixi qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra işləri öz gözəl töhfələri ilə açdı. O cümlədən, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Tədbirdə məktəbin təşkilati işlərl üzrə direktor müavini Nurdanə Zeynalova çıxış edərək, Azərbaycanda yaşayan azərbaycanlılar və başqa ölkələrdə yaşayan soydaşlarımız haqqında həmişə düşündüyümüzü, onlarla həmrəyliyimizi bildirməyə çalışmağımızı qeyd etdi. O da 31 dekabr—Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir iştirakçılarını təbrik etdi.

Məni sevindirən odur ki, dünya azərbaycanlılarında millilik, milli vətənpərvərlik hissləri günü-gündən artır. Bu da bizim həmrəyliyimizin güclənməsinin mühüm bir amilidir.

Sonda şagirdlərin məzmunlu çıxışları və ürəkaçan məharətləri hamı tərəfindən alqışlandı.

**Zibeydə ƏHMƏDOVA,**
**şəhər 1 saylı tam orta məktəbin müəllimi.**

## Bağçada Yeni il şənliyi

Bum qəsəbə uşaq bağçasında hər il ənənəvi olaraq təntənəli Yeni il şənliyi keçirilir. Bu təntənə ötən il dekabrın 28-də bağçanın tərbiyəçilərinə və uşaqlara yeni ovqat bəxş etmişdir.



Tədbirə valideynlər də qatılmışlar.

Yeni il şənliyini bağçanın müdiri Rahilə Sədirova açmış və giriş nitqində bağçanın 2012-ci ildə yeni binasının tikilib istifadəyə verilməsini qeyd etmiş, burada uşaqların düzgün tərbiyəsi, məktəbə hazırlanması sahəsində görülən işlərdən, valideynlərlə əlaqə formalarından, tarixi və əlamətdar günlərdə keçirilən kütləvi tədbirlərdən, bağçalara göstərilən dövlət və yerli təşkilatların qayğılarından danışmış, sonda tədbirə toplaşanları 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə təbrik etmiş, onlara 2013-cü ildə daha yüksək uğurlar, xoşbəxtlik və cansağlığı arzulamışdır.

Şaxta baba və Qar qız uşaqları salamlamış, onlara qış lətifələri və nağılları danışmış, Yeni il hədiyyələri paylamışdır. Uşaqlar da öz növbəsində kiçik şeirlər söyləmişlər.

Valideynlərdən Ülviyyə Bayramova, Günay Qaragözova və Səbinə Dadaşova çıxış edərək bağçanın 2012-ci ildəki fəaliyyətindən razı qaldıqlarını bildirmiş və valideynlər adından Yeni il münasibətilə bağça kollektivini təbrik etmişlər.

Tədbirin hazırlanmasında tərbiyəçi-müəllim Nərgiz Babayevanın xüsusi əməyi olmuşdur.

Sonda bağçanın müdiri R. Sədirova çıxış edərək tədbirin rəngarəng keçməsində tərbiyəçi-müəllimlər və validenlərə minnətdarlığını bildirmiş və şənliyi bağlı elan etmişdir.

**Sevil MƏMMƏDOVA,**
**bağçanın tərbiyəçi köməkçisi.**

